7

# Beşinci İmamımız

# Hz. İmam Məhəmməd Baqir (ə)



Beşinci imam Baqir ləqəbilə tanınan Məhəmməd ibn Əli ibn Hüseyn (ə) 57-ci (və yaxud 58-ci) hicri-qəməri ilində dünyaya göz açmışdır. Yəqubi o həzrətdən belə nəql edir: Ceddim Hüseynin (ə) şəhadəti zamanı mən dörd yaşında idim və o həzrətin necə şəhid edildiyini və başımıza gələnlərin hamısını xatırlayıram.

Atası imam Zeynəlabidinin (ə) şəhadəti zamanı imam Baqirin (ə) 37-38 yaşı var idi. Anası isə imam Həsənin (ə) qızı Ümmü-Əbdüllahdır. Buna görə də, imam Baqir (ə) həm ata, həm də ana tərəfdən imam Əli (ə) və xanım Zəhraya (s) çatan ilk şəxsdir. İmam Baqir (ə) 114-cü hicri-qəməri ilində İbrahim ibn Vəlid ibn Əbdülməlik tərəfindən zəhərlənərək şəhadətə yetmiş və Bəqi qəbiristanlığında atası imam Zeynəlabidin (ə) və babası imam Həsənin (ə) qəbirləri kənarında dəfn olunmuşdur. O həzrətin imamət dövrü on doqquz və ya iyirmi il olmuşdur.

O həzrət elmi yaran və elmin dərinliyinə varan mənasını verən Baqir ləqəbi ilə məşhurdur. Bu ləqəbin izahında Cabir ibn Yezid Cöfi belə demişdir: O həzrət elmin incəliklərinə toxunaraq onun sirr və incəliklərinə aydınlıq gətirirdi. Yəqubi yazır: Elmin dərinliyinə vardığından o həzrəti Baqir adlandırmışlar.

Cabir ibn Abdullah Ənsari deyir: Bir gün Rəsulullah (s) mənə buyurdu: Sən məndən sonra bir müddət yaşayacaq, adı mənim addımla eyni və mənə çox bənzəyən övladımı ziyarət edəcəksən. Onu gördükdə, salamımı çatdır və bu sifarişimi mütləq yerinə yetir! Cabir ömrünün sonlarında ölümünün yaxınlaşdığını gördükdə, dayanmadan: Ey Baqir! Ey Baqir! Haradasan? deyirdi. Bir gün o həzrəti görüb özünü ona çatdırdı və Həzrətin üz-gözündən öpərək atası Rəsulullaha (s) bənzəyənə atam-anam fəda olsun, Rəsulullah (s) sənə salam göndərmişdir! deyirdi.

## İMAM BAQİRİN (Ə) ƏXLAQI

İmam Baqir (ə) kamillik pillələrini fəth etməsi və yüksək əxlaqi səciyyələrə malik olması ilə bəşəriyyət tarixində təkrarolunmaz bir şəxsiyyətdir:

1. İmam Baqirin (ə) helmi (həlimliyi, yaxşı rəftarı)

İmam Baqir (ə) insanların ən həlimlisi idi, tarixçilər onun helmli olması haqda bir çox rəvayətlər nəql etmişlər. O cümlədən:

1. Bir gün kitab əhlindən olan bir nəfər imam Baqirin (ə) üstünə gələrək Sən bəqər sən ( bəqər sözü inək mənasını verir)! dedikdə, İmam (ə) gülümsəyərək mehribanlıqla buyurur: Xeyr, mən Baqirəm (elmləri yaran, açan şəxs). Kitab əhli deyir: Sən aşpaz qadının oğlusan. İmam (ə) buyurur: Bu, onun peşəsi idi. Kitab əhli düşməncəsinə İmama (ə) deyir: Sən çirkin zənci bir qadının oğlusan. İmam (ə) qəzəblənmədən buyurur: Əgər düz



deyirsənsə, Allah səni bağışlasın və əgər yalan deyirsənsə, yenə də Allah səni bağışlasın.
Kitab əhli peyğəmbərlərin əxlaqına oxşayan bu gözəl əxlaqın təsirindən özünü itirir və sonra İslamı qəbul edir.

2. Bir gün bir şamlı təsadüfən imam Baqirin (ə) məclisində iştirak edir və mühazirələrini eşidir. Bu, onun çox xoşuna gəldiyi üçün deyir: Ey Mühəmməd! Mən sənin məclisində iştirak etdim. Amma bu, mənim sənə məhəbbətimin əlaməti deyil. Mən siz Əhli-beytə (ə) nifrət bəsləyirəm və bilirəm ki, Allah-Taalaya və möminlərin əmirinə itaətin əlaməti sizə nifrət, kin-küdurət bəsləməkdir. Lakin görürəm ki, sən fəsahətli və xüsusi gözəl bəyanı olan bir insansan. Mən sənin bu gözəl ədəbində çaşbaş qalmışam.
İmam (ə) məhəbbət və mehribanlıqla ona doğru yolu göstərir. Yolunu azmış rəhbərlərin Əhli-beytin (ə) əleyhinə uydurma və yalanları ona aydın olur. Əqidəsi dəyişərək İmamı (ə) sevməyə başlayır və ölənə qədər bu halda qalır. Öləndə də vəsiyyət edir ki, İmam (ə) ona namaz qılsın.

### 2. İmam Baqirin (ə) səbri

İmam Baqirin (ə) əxlaqi keyfiyyətlərindən biri də uşaqlıq çağlarından gördüyü çətin və böyük hadisələr müqabilində səbirli, dözümlü olması idi. O həzrət Kərbəlada cənnət gənclərinin sərvəri imam Hüseynin (ə), onun əhli-əyalının və qəhrəman səhabələrinin qətlə yetirildiyini görmüş, Əhli-beytin (ə) çəkdiyi müsibət və bəlaların şahidi olmuşdur. Buna görə də, o həzrət həmin müsibətləri və Kərbəla faciəsini təfərrüatı ilə rəvayət edənlərdən biridir.
Doğrudan da, imam Baqir (ə) ağır müsibətlərə dözmüş, səbir etmişdir. Biz burada həmin müsibətlərdən bir neçəsini qeyd etməklə kifayətlənirik:
Əməvi hakimiyyətinin o həzrətin məsum əcdadlarının (ə) haqqını almasını və onlara hörmətsizlik etməsini, cümə və bayram namazlarının xütbələrində onlara nalayiq sözlər deyilməsini, hətta Hindin oğlu Müaviyənin Əhli-beytlə (ə) bağlı yaramaz çıxışlarını və bunu islami əqidə kimi tanıtdırmasını, bu işi müsəlmanlara vacib etməsini İmam (ə) eşidir, bir söz belə deməyə imkan tapmırdı. O həzrət (ə) bütün bu çətin bəlalara, əziyyətlərə dözüb səbir etməkdən başqa bir yol görmürdü.

### 3. İmam Baqirin (ə) zahidliyi (dünyaya rəğbətsizliyi)

İmam Baqirin (ə) gözəl əxlaq nümunələrindən biri də dünyada zahid yaşaması və onun bütün



zinət və gözəlliklərinə etina etməməsi idi. İmam (ə) öz evində zinət əşyaları saxlamırdı. Həmişə həsirin üstündə oturardı.

Cabir ibn Yezid Cofi o həzrətin zahidliyi haqda belə nəql edir: Bir dəfə Mühəmməd ibn Əli ibn Hüseyn (ə) mənə buyurdu: Ey Cabir! Mən qəm çəkirəm və qəlbim ağrıyır. Cabir dedi: Nədən qəm çəkirsən və qəlbini ağrıdan nədir? İmam (ə) buyurdu: Ey Cabir! İzzət və cəlal sahibi olan Allahın saf dini kimin qəlbinə daxil olarsa, onu başqa şeylərdən ayırar. Ey Cabir! Dünya nədir və nə olmaq istəyir? O, yalnız sənin mindiyin bir minik, geyindiyin bir paltar və yaxud evləndiyin bir qadın deyilmi?

Həqiqətən, İmam (ə) dünyadan belə əl çəkmişdi və babası Əmirəlmöminin Əli (ə) kimi ona talaq vermiş (onu boşamış), ondan üz döndərmiş, hansısa bir zinətinə meyil etməmişdi.

### 4. İmam Baqirin (ə) səxavəti

*. Səxavət imam Baqirin (ə) ən bariz xüsusiyyətlərindən biri idi. O həzrət həmişə yoxsullara və məhrumlara yaxşılıq edər və onları sevindirərdi. İbn Səbbağ deyir: İmam Mühəmməd Baqir (ə) elm, fəzilət, rəyasət və imamlığı ilə bərabər, bütün mənbələrdə səxavətli olması ilə yad edilmiş və ailə üzvlərinin çox və imkanının ortasəviyyəli olmasına baxmayaraq, fəzilət, ehsan və yaxşılıqda şöhrət qazanmışdı.

Tarixçilər onun səxavətinə dair çoxlu sayda rəvayət qeyd etmişlər və biz burada onlardan bir neçəsini qeyd edirik:



*. Süleyman ibn Qərəm deyir: İmam Baqir bizə beş yüz, altı yüz və hətta min dirhəm hədiyyə verərdi, qardaşları və istəyənlərinə kömək və bəxşiş etməkdən əl çəkməz və heç vaxt onları unutmazdı.

*. Həsən ibn Kəsir deyir: Mən Əbu Cəfər Məhəmməd ibn Əliyə (imam Baqir (ə)) yoxsulluqdan və qardaşlarımın cəfa və zülmündən şikayət etdim. İmam (ə) təsirlənərək buyurdu:

Varlı ikən səni axtaran, amma yoxsul ikən səninlə əlaqəsini qıran qardaş nə pis qardaşdır!

Sonra Həzrət öz qulamına yeddi yüz dirhəmdən ibarət pul kisəsini mənə verməsini əmr edib buyurdu: Bunu xərclə, əgər qurtarsa, mənə xəbər verərsən.

İmam Baqir (ə) bu qədər bəxşiş və səxavətinə görə Allah-Taaladan başqa heç kimdən min-

nətdarlıq istəmirdi.

*. Abdullah ibn Übeyd və Əmr ibn Dinar belə deyirlər: Biz Əbu Cəfər Məhəmməd ibn Əli (imam Baqir) (ə) ilə nə vaxt görüşsəydik, bizə pul və paltar hədiyyə edər, sonra isə buyurardı: Sizin gəlişinizdən öncə bunlar sizin üçün hazırlanmışdı.

*. İmam Baqirin (ə) kənizi Səlmi deyir: İmam (ə) evinə gələn bütün dostlarına pak, ləziz yeməklər verər, gözəl paltarlar geyindirər və onlara pul hədiyyə verərdi. O həzrət həmişə buyurardı: Dünyada yalnız yaxşılıqlar və (din) qardaşlarla əlaqələri möhkəmlətmək arzu olunmalıdır.

Həmçinin buyurmuşdur:

Dünyanı gözəlləşdirən yalnız qardaşlara kömək etmək və yaxşılıqlardır.

### 5. İmam Baqirin (ə) yoxsullara ehtiramı

İmam Baqirin (ə) gözəl əxlaqi nümunələrindən biri də yoxsullara böyük ehtiram və qayğı göstərməsi idi. O həzrət öz əhli-əyalına tapşırmışdı ki, evə bir dilənçi gəldikdə, ona ey dilənçi, bunu götür deməsin. Desin ki, Ey Allahın bəndəsi, bu, sənin üçün hazırlanıb.

O həzrət buyurmuşdur: Yoxsulları gözəl sözlərlə çağırın.

### 6. İmam Baqirin (ə) Mədinə yoxsullarına yardım etməsi

İmam Baqir (ə) Mədinə yoxsullarına həmişə kömək edər və onlara sədəqə verərdi. Onun verdiyi sədəqələr hesablandıqda, səkkiz min dinara çatmışdı. O həzrət hər cümə günü Mədinə yoxsullarına bir dinar sədəqə verib buyurardı: Cümə günü sədəqə verməyin fəziləti başqa günlərdə verilən sədəqənin fəzilətindən çoxdur.

### 7. İmam Baqirin (ə) Allaha itaəti

İmam Baqir (ə) yalnız Allah-Taalaya ümid bəsləyər, yalnız Ona təvəkkül edər və layiqincə ibadət edərdi. Namaza durduğu zaman Onun xofundan rəngi saralardı. Allah-Taala ilə münacat və raz-niyaz zamanı belə deyərdi: (İlahi!) mənə əmr etdin, əmrinə itaət etmədim. Məni müəyyən işlərdən çəkindirdin, amma mən çəkinmədim. Sənin qarşında dayanmış bəndən mənəm!

O həzrətin qulamı Əfləh deyir: Mən imam Baqirlə (ə) birlikdə həcc ziyarətinə getmişdim. Həzrət (ə) məscidə daxil olarkən hönkürtü ilə ağlamağa başladı. Mən dedim: Atam-anam sənə fəda olsun, insanlar sənə baxırlar. Bəlkə səsini bir az azaldasan? İmam (ə) mənə buyurdu: Ey Əfləh! Mən ona görə hönkürtü ilə ağlayıram ki, Allah-Taala mərhəmət nəzəri ilə mənə baxsın və bununla sabah (qiyamətdə) nicat tapanlardan olum. Bundan sonra İmam (ə) Kəbəni təvaf edib, məqam arxasında namaz qıldı. Namazı qurtardıqda, səcdə etdiyi yer göz yaşları ilə islanmışdı.

O həzrət vaxtının çoxunu Allah-Taala barəsində söhbət etməklə keçirərdi. Günəş çıxmamışdan

öncə övladlarını bir yerə toplayar və onlara günəş çıxana qədər Allah-Taalanı zikr etməyi tövsiyə edərdi.



## İMAM BAQİRİN (Ə) ELMİ MƏQAMI

Alimlərinin çoxunun fikrincə, imam Baqirin (ə) elmi məclisləri şöhrət tapmışdı və o həzrətin dərsində bütün İslam şəhərlərindən gələnlər iştirak edirdi. O həzrət alim, fəqih və Əhli-beyt (ə) elmlərinin varisi olduğundan çoxları İmamın hüzurundan faydalanır, elmi və fiqhi suallarının həllini o həzrətdən soruşurdular. İbn Ənbətənin ibarəsi ilə desək, çox dərin bilik və böyük səbrə sahib olan imam Baqirin (ə) elmi şöhrəti onu izah etməkdən daha yüksəkdədir.

Gürcüstan Müsəlmanları İdarəsi

## İMAM BAQİRDƏN (Ə) HƏDİSLƏR

** “Həqiqətən, bu dil bütün xeyir və şərlərin açarıdır. Nə yaxşı olar ki, mömin şəxs qızıl və gümüşünü möhürlədiyi (qızıl və gümüş kisəsinin ağzını bağladığı) kimi, öz dilini də möhürləsin!”*

** “Yaxşılıq və sədəqə yoxsulluğu aradan qaldırır, ömrü uzadır və yetmiş pis ölümü (bəlanı) yaxşılıq və sədəqə sahibindən uzaqlaşdırır.”*

** “Niyyəti yaxşı olanın ruzisi çox olar.”*

** “Hər kim bir mömini yedirsə, Allah-Taala ona cənnət meyvələri yedirər.”*

** “Sileyi-rəhm (qohumluq əlaqələri) əməlləri paklayır, malı artırır, bəlanı uzaqlaşdırır, hesabı (qiyamətdə) asanlaşdırır və əcəli təxirə salır.”*

** “Allah dərgahında kiçik olmasına baxmayaraq davamlı yerinə yetirilən (yaxşı) əməldən sevimli bir əməl yoxdur.”*

** “Özünüzü yaxşı işlərə adət etdirin, xeyirxah insanlardan olun və həmin əlamətlə (xeyirxahlıqla) tanının.”*

** “Hər kim bir müsəlmanın hacətini rəva etsə və müşkülünü açsa, Allah-Taala ona belə xitab edər: “Sənin mükafat və savabın Mənim öhdəmdədir və Mən cənnətdən başqa bir mükafatla razı olmaram.”*